## "İRS-НАСЛЕДИЕ" HAMININ JURNALIDIR



İşıq üzü görən hər bir mətbu orqanın uğuru oxucularının onu necə qarşılayacağından asılıdır. Kollektivin əvvəllər "İRS", indi isə "İRS-НАСЛЕДИЕ" kimi hazırladığı jurnalı daimi oxucular çox yaxşı tanıyır və qiymətləndirirlər.

Dəfələrlə soruşurlar:

– "İRS-НАСЛЕДИЕ" kimin jurnalıdır? Cavab çox sadədir: Hamının... Azərbaycanı Azərbaycandan kənarda tanıtmaq istəyən hər bir azərbaycanlının. Məramımız, məqsədimiz daha sadədir: Vətənimizin tarixini, indisini, mədəniyyətini, incəsənətini, ədəbiyyatını, iqtisadiyyatını... ümumiyyətlə, gələcək nəsillərə İRS ola biləcək maddi və mənəvi sərvətlərimizi təbliğ etmək və dünyaya tanıtmaq.

... Azərbaycandan kənarda yaşayan soydaşlarımızın uzun müddət qəbul edilmiş standartlara uyğun, bütün narazılıqların, çəkişmələrin fövqündə dura biləcək mətbuat orqanına ehtiyacı olub. Elə biz də istəmişik ki, həmvətənlərimizin doğma el-oba ilə əlaqələri möhkəm olsun. Respublikamızı qürbətdə layiqincə təmsil etsinlər. Bu ehtiyac və istəklərin nəticəsidir ki, "İRS-НАСЛЕДИЕ" növbəti dəfə Sizin görüşünüzə gəlir. Jurnalın yenidən çap olunmasına təşəbbüs göstərən Moskva Azərbaycan cəmiyyətinin (sədr Mamed Bağırovdur) bir istəyi də deyəsən baş tutur inşaallah: Bütün Azərbaycan cəmiyyətlərinin ümumi işin, ümumi dərd-kədərimizin, sevincimizin ətrafında birləşməsi.

Müxtəlif cəmiyyət rəhbərlərinin, ziyalılarımızın jurnalın redaksiya heyətində təmsil olunmaları gələcək həmrəylikdən, birgə işimizdən xəbər verir. Xalqımızın çətin vəziyyətində, torpaqlarımızın işğal altında olduğu vaxtda hamının – sənin, mənim, onun – yumruq kimi bir olmaqdan savayı özgə niyyəti olmamalıdır.

Beləliklə, "İRS-НАСЛЕДИЕ" hamının jurnalıdır, Azərbaycanın qüdrətli dövlətçiliyini, onun uğurlarını istəyən hər bir şəxs, hər bir cəmiyyət bu jurnalı ürəklə özününkü bilməli, fəxrlə öz adından təqdim etməlidir.

Biz hamınızı əməkdaşlığa dəvət edirik və inanırıq:

– Birgə işimiz Sizin üçün də maraqlı olacaqdır.

***Musa MƏRCANLI,***
***baş redaktor***

## "İRS-НАСЛЕДИЕ" - НЕОБХОДИМОСТЬ ВРЕМЕНИ

Успех каждого органа прессы зависит от того, как он будет воспринят читательской публикой. В этом, журналу "İRS-НАСЛЕДИЕ", который ранее издавался коллективом под названием "İRS", повезло. Он имеет своих постоянных читателей. Они его высоко ценят и с нетерпением ждут нового номера журнала.

Часто мы слышим такой вопрос: "Кому принадлежит журнал "İRS-НАСЛЕДИЕ"? Ответ очень прост и ясен – он принадлежит Всем. Всем, кто стремится прославить свою Родину далеко за ее пределами. Наша цель также проста: ознакомление читателей с прошлым, настоящим, экономической, культурной жизнью нашего Азербайджана и передача всего этого достояния последующим поколениям.

...Кроме того, издание такого журнала оказалось весьма кстати, потому что наши соотечественники, живущие за пределами Азербайджана давно ощущали нехватку в таком органе прессы, который бы отвечал всем стандартам и был далек от мелких разногласий и распрей. И мы пожелали, чтобы они имели тесные связи со своей Родиной и могли достойно представлять ее за рубежом. Поэтому новая встреча "İRS-НАСЛЕДИЕ" с Вами, дорогие читатели, - это не случайность, а необходимость.

Думается, что недалек тот день, когда исполнится заветная мечта Московского азербайджанского общества, его председателя – Мамеда Багирова, которое поддерживало нас – мечта о единении всех диаспор вокруг общих интересов. То, что в нашей редакционной коллегии представлены руководители различных обществ, представители интеллигенции различных убеждений, еще раз дает надежду на ее исполнение. Мы надеемся, что деятельность такого журнала, как "İRS-НАСЛЕДИЕ" станет той благодатной почвой, на которой эта мечта постепенно превратиться в реальность. Поэтому каждый, кто верит в будущее Азербайджана, кто верит в его государственность, может спокойно назвать "İRS-НАСЛЕДИЕ" своим журналом, не зависимо от того, живет он в Азербайджане или за его пределами.

Мы всех приглашаем к сотрудничеству и выражаем надежду, что оно станет интересным и для Вас.

***Муса МАРДЖАНЛЫ,***
***главный редактор***